


*Əjdər Yunusov*


## YETİŞİB ZAMAN

*"Eşitsin ana torpq, qoy bisin Vətən,*
*Müsallah əsgərəm mən də, bu gündən."*

Keçirib düşməni bir-bir süngüdən,
Qələbə çalmamış dönmərəm geri,
Qoymaram taptaqda bir qarış yerı.
Dediyim an gəlib, yetişib zaman,
Artır ümidimiz, gül açır güman.
Bir daha düşmənə vermərik aman,
O vaxtkı döyüşdən olmayacaqdır,
Yurdumda bir dığa qalmayacaqdır.
Otuz il gözlədik, otuz il dözdük,
Çıxış yollarını aradıq, gəzdik...
Düşmən deməsin ki, yorulub bezdik,
Təzədən meydana giririk indi.
Kimin kimliyini görürik indi.
Bizi tək gördülər, təkləndik onda,
Boğuldu elimiz, obamız qanda.
Türküm ki, özünü yetirdi sonda,
Şuşadan yad bayraq salınacaqdır.
Xocalnın qisası alınacaqdır.
Oğullar yazılır döyüşmək üçün,
Bir şəhid yerinə mini var bu gün.
Tezliklə bu dünya görəcək gücün,
Düşmən cəbhəsini yaran ordumun,
Yağının boynunu qıran ordumun.

## ORDUM

Biridağdan aşıb keçən,
Yağıları bir-bir biçən,
Canın alb, qanın içən,
Şimşək kimi çaxan ordum.

Bir tarixi zəfər çaldın,
Qisasımı min qat aldın.
Quzeyimdə cığır saldın,
Güneyimə baxan ordum.

Tut verdiyin sözlərini,
Oy dığanın gözlərini.
Yurda düşmüş izlərini,
Yandırıban yaxan ordum.

Araz çayım coşub, daşır,
O tay, bu tay quçaqlaşır.
Yağılar baxıb alışır,
Xudafərin körpüsünə,
Bayrağımı taxan ordum.

## ORDUM

Varlığım da sən, qüdrətim də sən,
Namusum, arım sən, qeyrətim də sən,
Tarixlərdən gələn heyrətim də sən,
Sənə arxalanır, inanır yurdum.
Sənin hünərinə min alqış, ordum.

Azadlır ordumsan, xilaskarımsan,
Güvənc yerimsən sən, darda karımsan.
Nə yaxşı, nə yaxşı, şükür varımsan,
Aman verməyursən yağıya, Qurdum.
Sənin hünərinə min alqış, ordum.

Sən dönüb şimşəyə alışdın, çaxdın,
Bir anda düşməni yandırıb, yaxdın.
Həsrət körpüsünə bayrağı taxtın,
O taylı, bu taylı nurlanır yurdum.
Sənin hünərinə min alqış, ordum.



## VƏTƏN ƏMR EYLƏYİB

Hər qayanın, hər daşın qisasını al,əsgər,
Hər addımın, hər qarışın qisaını al,əsgər,
Şəhid olan yoldaşın qisasını al,əsgər,
Yazılsın tariximə bi zəfər ayı, ili.
Vətən əmr eyləyib, dayanma,cum irəli!

Bu anı, bu fürsəti verməyin əsla bada,
Xocalının qisasını salınız hər an yada.
Yağılara göztərin məhşəri bu dünyada,
Qır, boğsun özlərini mənfurların qan seli.
Vətən əmr eyləyib, dayanma,cum irəli!

İnanıram, uzaq deyil qələbənin sorağı,
Azərbaycan qoynuna alacaq Qarabağı.
Əsəcək dağlarımdan azadlıq bahar yeli.
Vətən əmr eyləyib, dayanma,cum irəli!

## YAZ, ƏSGƏR

Şad xəbərin xəbər gəlir dalıncan,
Xankəndini, Can Şuşanı alıncan,
Dayanma sən, son zəfəri çalıncan,
Tariximə yeni tarix yaz, əsgər.
Dığaların soy kökünü qaz, əsgər!

Yurdsuz illər ürəyimə xal salıb,
Məni dərdə o yurdsuzluq hal salıb.
Nə müddətdr boran alıb, qar alb,
Dağlarıma gətir bahar, yaz, əsgər,
Tariximə yeni tarix yaz, əsgər.

Bu da yeni bir taledir, bir baxdı,
Yad əllərdən xilas olar xan taxtı.
Cıdır düzü həsrət qalıb nə vaxtdı,
Dinsin kaman, ötüşsün tar, saz, əsgər.
Tariximə yeni tarix yaz, əsgər.

Qanadlanıb könlüm yurda uçmağa,
Alaq basmış cığırları açmağa.
Az qlıbdır, Qarabağı qucmağa,
Tariximdə belə zəfər az, əsgər,
Tariximə yeni tarix yaz, əsgər.

## QOVUŞACAĞAM

Cəbrayılım işğaldan azad olan günü...
Vüsalla hicranın arasındayam,
Tezliklə vüsala qovuşacağam.
Eşib kül altından götürüb qoru,
Yurdumda təzədən alışacağam.

Darayıb söyüdün həsrət saçını,
Qılacam könlümün dərd əlacını.
İllərlə çəkdiağrı,acını,
Dağıma, daşıma danışacağam.

Atdım dözümümü, atdım səbrimi,
Sildim taleyimdən, Əjdər,cəbrimi.
Özüm öz əlimlə qazıb qəbrimi,
Yurdumda torpağa qarışacağam.


ətdalət- 2020.- 20 oktyabr.- S.7.